# *Mixail KAVELAŞVİLİ:* "Prezident Tramp Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanmasında fəal iştirak edir"

**Gürcüstan Prezidenti Mixail Kavelaşvili ABŞ Prezidenti Donald Trampa açıq məktubla müraciət edib.**

AZƏRTAC-ın məlumatına görə, M.Kavelaşvili məktubunda Gürcüstanla Birləşmiş Ştatlar arasında strateji tərəfdaşlığın bərpasının vacibliyini qeyd edib və bildirib ki, strateji tərəfdaşlığın bərpası hər iki tərəfin maraqlarına xidmət edir.

ABŞ-nin keçmiş Prezidenti Cozef Baydeni bir sıra suveren dövlətlərə qarşı ədalətsiz və təcavüzkar siyasət yürütməkdə ittiham edən M.Kavelaşvili bildirib ki, Bayden administrasiyası Gürcüstan ilə əməkdaşlığı



dayandırmaqla ölkələr arasında münasibətlərə böyük zərbə vurub.

O qeyd edib ki, Gürcüstanla ABŞ-nin dəyərləri üst-üstə düşsə də, Vaşinqtondakı yeni administrasiya hələlik Tbilisiyə kifayət qədər diqqət göstərmir.

Kavelaşvili Prezident Donald Trampın dünyada sülhsevər siyasətinin əhəmiyyətini xüsusi qeyd edib. Bildirib ki, Prezident Donald Tramp Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanmasında fəal iştirak edir, Türkiyə ilə əməkdaşlığa xüsusi önəm verir və hətta Rusiya Prezidenti Vladimir Putinlə dialoqu bərpa edib.

"Lakin, təəssüf ki, ABŞ Prezidenti Gürcüstanı bir dəfə də olsun xatırlamayıb", - deyə M.Kavelaşvili vurğulayıb.

Gürcüstan lideri Vaşinqtonun Tbilisiyə münasibətinin dəyişəcəyinə ümid etdiyini bildirib.

Azərbaycan.- 2025.-2 sentyabr (№185).- S.9.